"Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiya layihəsinin icrası uğurla davam edir

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiya layihəsinin icrasına start verib. Layihə çərçivəsində Ağ Ev Administrasiyasının internet resursunda Obama administrasiyasına petisiya ilə müraciət açılıb. Bu məqsədlə rayon icra hakimiyyətində idarə, müəssisə və təşkilatların, həmçinin inzibati ərazi dairəsi üzrə nümayəndələrin iştirakı ilə maarifləndirici görüş keçirilib. Görüşdə Qəbələ rayon icra hakimiyyətinin informasiya təminatı və təhlil sektorunun müdiri Zahir Kərimov "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiya haqqında ətraflı məlumat verərək, bu istiqamətdə geniş ideoloji mübarizə aparılmasının vacibliyini vurğulayıb. O bildirib ki, qaydalara görə, petisiyaya cavab verilməsi üçün may ayının 5-dək davam edəcək səsvermədə müraciəti ən azı 100 min nəfərin (elektron) imzalaması lazımdır. Qeyd olunub ki, Petisiyanı 13 yaşdan yuxarı şəxslər imzalaya bilərlər. Tədbirdə diqqətə çatdırılıb ki, bu müraciətdə Avropa Şurası Parlament Assambleyasının 2085 (2016-cı il) saylı qətnaməsində vurğulanan Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olması faktı, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbi, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırkı durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı diqqətə çatdırılır. Bu ideoloji mübarizədə hər bir azərbaycanlının üzərinə böyük vəzifə düşür.

Zahir Kərimov dünyada bəzi naqis, xain və bədniyyət qüvvələrin Azərbaycana qarşı ciddi təzyiqlərinin olduğunu vurğulayaraq, "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiyanın səs vermə prosesində fəal iştirakın vacibliyini qeyd edib.

Görüş çərçivəsində petisiyada iştirak etməyin qaydaları izah olunub, iştirakçılara məlumatlandırıcı materiallar paylanılıb.

Oqtay Məmmədov.
Fotolar İ. Vəlizadənindir.

Dini radikalizmə qarşı mübarizə hamının vəzifəsidir

Aprel ayının 9-da Qəbələ Mədəniyyət Mərkəzində «Dini radikalizm və gətirdiyi fəsadlar» mövzusuna həsr olunmuş dəyirmi masa keçirilmişdir.

Tədbiri giriş sözü ilə Qəbələ şəhər məscidi imamının müavini Saleh Şirinov açmışdır. Günümüzdə aktual olan bu məsələ ilə əlaqədar danışmaq üçün çöz Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məsul işçisi, Bakı Dövlət Universitetinin müəllimi Adil Şirinova verilmişdir.

Dövlət Komitəsinin rəsmisi dini radikalizmin əmələ gəlmə səbəbləri, mənbələri barədə elmi cəhətdən əsaslandırılmış faktlarla tədbir iştirakçılarına geniş məlumat vermişdir. Natiq dini radikalizmin cəmiyyət üçün törətdiyi fəsadları sadalamaqla bərabər radikalizmi zəiflətmək və aradan qaldırmaq yolları barədə də ətraflı söhbət açmışdır.

Adil Şirinov bildirmişdir ki, ənənəvi islamda radikalizm yoxdur. Dinimizə radikalizm meyllərini əmələ gətirən faktorlardan əsası Qərbin islama, islam ölkələrinə qarşı tutduğu məkrli siyasət yoludur. Bəzi imperialist dairələr islamda radikalizm meyllərini yaratmaq və gücləndirməklə öz iqtisadi və siyasi maraqlarına münbit şərait yaratmaq məqsədi güdürlər. Ona görə də bizim əsas vəzifəmiz cəmiyyətdə ənənəvi islam dəyərlərini təbliğ etməkdən ibarətdir. İslam barış dinidir, sülh dinidir. İslamda günahsız insanı öldümək ən böyük, bağışlanılmaz günahdır. Halbuki, özünü İslama qulluq edən kimi qələmə verən radikaların törətdiyi terror hadisələri nəticsində minlərlə günahsız insanlar həlak olur.

Mövzu ilə əlaqədar müzakirələrdə rayon ziyalılarından və ağsaqqallarından Fərman Əzizli, Vaqif Əzimov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki—Zaqatala regionu üzrə şöbə müdiri Gündüz Paşayev və digərləri çıxış edərək öz mülahizələrini söylədilər.

Qüdrət SƏMƏDOV.

Uşaqların immunizasiyası vacib prosesdir

Uşaqların sağlamlıq vəziyyətinin qorunması bütün dünya ölkələrinin ən prioritet vəzifələrindən biridir. Bu sahədə uşaqların immunizasiyasının aparılması ən vacib tədbirdir. Bizim ölkəmiz də Ümumdünya Səhiyyə Təşkilatının 194 üzv dövlətlərindən biridir. Bu dövlətlər 2012-ci ildə Vaksinasiya üzrə Qlobal Fəaliyyət planını qəbul etmişdir. Bu planda əsas məqsəd uşaqların 90 faizdən çoxunun immunizasiyaya cəlb olunmasıdır.

Bizim rayonda uşaqların immunizasiyası sahəsində əməli uğurlar əldə edilmişdir. Belə ki, hər ayın 14—15-də vahid immunizasiya günləri tətbiq olunur. Bütün periferik tibb müəssisələrinə pediatr həkim- kuratorlar göndərilir, peyvənd materialı xüsusi soyuducu çantalarda aparılır. Yerlərdə bütün uşaqlar pediatr həkim tərəfindən müayinə olunandan sonra peyvəndə cəlb olunur. Hər bir məntəqə ilk yardım üçün lazım olan dərmanlarla təchiz olunub. Son illər ölkəmizə gətirilən 5 komponentli HİB peyvəndi və PK peyvəndinin immunizasiya planına daxil edilməsinə görə ölkəmizdə və eləcə də Qəbələdə uşaqların meningit, pnevmaniya, otit və s. kimi ağır təhlükəli xəstəliklərlə xəstələnmə səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır. Bunun hesabına da uşaq ölümü göstəriciləri xeyli azalmış və 2015-ci ildə 5,2 faiz olmuşdur. Bu da Avropa göstəricisinə uyğundur. Lakin hələ də rayon əhalisi arasında uşaqlarını peyvənd elətdirmək istəməyən insanlar da vardır. Həmin adamlar çox əsassız bəhanələr gətirirlər. Lakin sizə əminliklə bildirirəm ki, peyvəndlərin kəşfi XX əsrdə dünya elminin ən böyuk insanlığa xeyirli kəşfi kimi qiymətləndirilir. Peyvəndlərin hesabına hər il dünyada 3 milyon uşaq ölümdən xilas olur. Çünki tetanus, diftetriya kimi xəstəliklərə yoluxma uşaqlarda ölümə gətirib çıxarır. Polimelitə yoluxma ya ölümə səbəb olur, ya da əlil arabasına möhtac edir. Digərlərinə yoluxma isə elə ağır fəsadlar yaradır ki, uşaq əgər xəstəlikdən qurtulsa belə ömür boyu şikəst qalır. Əziz valideynlər, profilaktik peyvəndlərdən sonra bəzən uşaqlarda yüngül hərarət və inyeksiya yerində şişkinlik yarana bilər. Bu yanaşı təsirlər qətiyyən təhlükəli deyil. Heç bir fəsadsız bir sutka ərzində düzəlir və normal reaksiya sayılır.

Səhiyyə maarifi işlərinin effektivliyinin artırılması üçün rayon ictimaiyyəti nümayəndələrinin, yerli icra və bələdiyyə stukturlarının, müəllim kollektivlərinin də rolu böyükdür. Onlar tibb işçilərinə bu işdə əsaslı kömək etməlidirlər.

2015-ci il ərzində profilaktik peyvəndlərdən hepatit «B»-yə qarşı 1039, göyöskürək, difteriya və tetanusa qarşı 1173, qızılça, parotit, məxmərəyə qarşı 2356, polimelitə qarşı 4912, 6 yaşlı uşaqlar arasında difteriya və tetanus əleyhinə 1037, pnevmaniya əleyhinə 3282 peyvənd olunub. Doğumun 4—7-ci günündə 1027 nəfər uşağa BSJ peyvəndi edilmişdir.

Bundan sonra da biz bu məsələnin uşaqların sağlamlığının qorunmasında ən prioritet iş olduğunu nəzərə alaraq fəaliyyətimizi daha da gücləndirəcəyik.

Saleh ASLANOV,
Qəbələ rayonunun baş pediatrı.